# Ermәni hәrbçilәri bir-birini güllәlәyib

Noyabrın 6-na keçәn gecә Ermәnistan silahlı qüvvәlәrinin bölmәlәri cәbhәnin müxtәlif istiqamәtlәrindә Azәrbaycan Ordusu bölmәlәrinin mövqelәrini vә yaşayış mәntәqәlәrimizi müxtәlif atıcı silahlar, top vә minaatanlardan atәşә tutub.

Döyüş әmәliyyatları müxtәlif intensivliklә, әsasәn cәbhәnin Ağdәrә, Ağdam, Xocavәnd vә Qubadlı istiqamәtlәrindә davam edib. Düşmәn cәbhәnin bәzi sahәlәrindә şәxsi heyәt vә hәrbi texnikada itkilәr verәrәk geri çәkilmәyә mәcbur edilib.

## Tәrtәr vә Goranboy atәşә tutulub

Saat 08:00-dan başlayaraq Ermәnistan silahlı qüvvәlәrinin bölmәlәri Tәrtәr şәhәrini, rayonun Qazyan vә Hüsәnli kәndlәrini atәşә tutur.

Azәrbaycan Ordusunun bölmәlәri tәrәfindәn düşmәnin atәş nöqtәlәrinin susdurulması üzrә cavab tәdbirlәri görülüb. Gecә әrzindә Goranboy rayonunun Tapqaraqoyunlu kәndi dә düşmәn tәrәfindәn artilleriya atәşinә tutulub.

## Düşmәnin komandir heyәti daxil olmaqla, xeyli sayda canlı qüvvәsi mәhv edilib

Müdafiә Nazirliyinin Hәrbi İnformasiya Mәrkәzindә brifinq keçirilib. Qeyd edilib ki, әsasәn cәbhәnin Ağdәrә, Ağdam, Xocavәnd vә Qubadlı istiqamәtlәrindә gedәn döyüş әmәliyyatlarında düşmәn bölmәlәri şәxsi heyәt vә texnika sarıdan itkilәr verәrәk geriyә çәkilmәyә mәcbur edilib.

Ordumuz Ağdam vә Ağdәrә istiqamәtlәrindә pusquya salmaqla vә atәş zәrbәlәri ilә düşmәnin hәrbi kolonunu, artilleriya batareyasını vә silah-sursat anbarını darmadağın edib. Düşmәnin komandir heyәti daxil olmaqla, xeyli sayda canlı qüvvәsi, bir rabitә avtomobili, sursatla dolu iki "KamAz" maşını vә qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digәr sursat vә artilleriya qurğuları mәhv edilib.

## Qubadlı-Laçın istiqamәtindә ermәni silahlıları mövqelәrini ataraq qaçıblar

Düşmәnin Tәrtәrin işğal olunmuş Göyarx kәndinin әrazisindәki minaatan heyәti ordumuzun dәqiq atәşi ilә mәhv edilib. Cәbhәnin Ağdәrә istiqamәtindә gedәn döyüşlәrdә canlı qüvvә vә döyüş texnikası sarıdan xeyli itki verәn düşmәn onun yerini doldura bilmir, bölmәlәrdә әrzaq, hәrbi әmlak, döyüş sursatı vә yanacaq çatışmır. Düşmәn bölmәlәrinin idarә olunmasında problemlәr yaranıb.



Qubadlı-Laçın istiqamәtindә gedәn döyüşlәrdә ordumuzun zәrbәlәrinә tab gәtirә bilmәyәn ermәni silahlıları mövqelәrini ataraq qaçıblar.

.

## Füzulinin azad olunan kәndlәrinin videogörüntülәri yayılıb

Müdafiә Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kәndlәrinin videogörüntülәrini yayıb. Görüntülәrdә ermәni vandalizminin izlәri aydın şәkildә görünüb.

## Ağdәrәdә düşmәnә mәxsus "D-30" haubitsa topu sıradan çıxarılıb

Ermәnistan silahlı qüvvәlәrinin Ağdәrә yaxınlığındakı atış nöqtәlәrinә çıxarılan "D-30" haubitsası heyәti ilә birgә bölmәlәrimizin dәqiq atәşi ilә mәhv edilib.

## Düşmәnin döyüş sursatları, yanacaq-sürtkü materialları tükәnib

Ağdәrәdә yerlәşәn Ermәnistan silahlı qüvvәlәri 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyası vә 5-ci dağatıcı alayının bölmәlәrinin tәminatında ciddi problemlәr yaranıb. Belә ki, bölmәlәrdә әrzaq, hәrbi әmlak, döyüş sursatları, yanacaq-sürtkü materialları çatışmır.

Cәbhәnin Ağdәrә istiqamәtindә gedәn döyüşlәrdә canlı qüvvә vә döyüş texnikası sarıdan xeyli itki verәn düşmәn bu itkilәrin yerini doldurmaq imkanına malik deyil.

Bundan әlavә, qeyd olunan hәrbi hissәlәrlә komandanlıq arasında rabitә әlaqәsi kәsilib vә bölmәlәrin idarә olunmasında problemlәr yaranıb. Bәzi yerlәrdә isә hәrbçilәr döyüşmәkdәn imtina edib. Onların qarşısını almaq istәyәrkәn bir-birilәrini güllәlәmәyә başlayıblar.

*Rәşad BAXŞӘLİYEV,*
*"Azәrbaycan"*

Azərbaycan. - 2024.- 6 noyabr (№ 245).- S.8.